# Qəlbimizdə yaşayanlar




**Respublikamızın ərazi bütövlüyü uğrunda aparılan Vətən müharibəsində torpaqlarımızı düşmən tapdağından canı bahasına azad edən və şəhidlik zirvəsinə yüksələn igid oğullarımızdan biri də Hüseynli Şamil Novruz oğludur.**

Şəhidimiz 1993-cü il yanvar ayının 8-də İmişli rayonunun Cəfərli kəndində dünyaya göz açıb. Vətən müharibəsində könüllü olaraq iştirak edib. Yaşasaydı, 29 yaşını qeyd edəcəkdi. Qəhrəman Vətən oğlu döyüş meydanında göstərdiyi igidliyə görə ölümündən sonra ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



İmişli Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Səfa Ağayev, aparatın məsul əməkdaşları, Vətən müharibəsi iştirakçıları və şəhidimizin ailə üzvləri, yaxınları, doğmaları və başqaları şəhidimizin dəfn olunduğu Cəfərli kənd qəbiristanlığında məzarını ziyarət edərək tər qərənfillər düzüb, xatirəsini dərin ehtiramla andılar. İgid Vətən oğlunun ruhuna dua oxuduqdan sonra rayon rəhbərləri və qonaqlar şəhidin ata ocağında olub, torpaq uğrunda canından keçən şəhidimizə Allahdan rəhmət, ailəsinə səbir dilədilər. Mərasimdə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbədən danışan Səfa Ağayev bildirdi ki, həmin zəfərdə payı olan Hüseynli Şamil kimi qəhrəman oğullarımızla bu gün hər birimiz fəxr edirik. 44 günlük savaşda əldə olunan tarixi Zəfərin müəllifi olan Ali Baş Komandana, şanlı Azərbaycan Ordusuna, şəhidlərimizə, qazilərimizə borclu və minnətdarıq. Şamilin doğum gününü onsuz qeyd etsək də, o, daim bizim qəlbimizdə yaşayır. 29 yaşında şəhidlik zirvəsinə ucalan Şamil qısa ömrünə yüz illərin qəhrəmanlıq dastanını sığdırdı.

Şəhidin ailəsi hər zaman onlara göstərilən diqqət və qayğıya görə razılığını ifadə edib, ölkə Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər. Övladlarının doğum günündə onun xatirəsinin yad olunmasını Şamilin timsalında bütün şəhidlərimizə olan hörmət və ehtiramın bariz nümunəsi kimi qiymətləndirdilər. Şəhidin valideynləri övladları və onun kimi igid Vətən oğulları ilə hər zaman fəxr edəcəklərini ifadə etdilər.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

Respublika.- 2022.- 19 yanvar.- S.8.